F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Süleyman Ələsgərovun ömür notları

**Xalq artisti, bəstəkar Süleyman Ələsgərovun 100 illiyi münasibətilə-mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2024**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Süleyman Ələsgərovun ömür notları -** Xalq artisti, bəstəkar Süleyman Ələsgərovun 100 illiyi münasibətilə-mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2024. – 22 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

**Süleyman Ələsgərovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2024-cü ildə görkəmli Azərbaycan bəstəkarı, tanınmış dirijor və pedaqoq, respublika Dövlət mükafatı laureatı, Xalq artisti Süleyman Əyyub oğlu Ələsgərovun anadan olmasının 100 illiyi tamam olur.

Süleyman Ələsgərov milli mədəni ənənələr zəminində yüksələrək Azərbaycan musiqi mədəniyyəti tarixinə mühüm səhifələr yazmış sənətkarlardandır. Onun janr əlvanlığı və forma aydınlığı ilə seçilən zəngin yaradıcılığı öz mənbəyini xalq musiqisi xəzinəsindən almışdır. Operetta, opera, simfonik muğam və poemaları, süita, kantata, kamera-vokal və instrumental əsərləri, xüsusən də sözlə melodiyanın ahəngdar vəhdətində ərsəyə gətirdiyi və ifaçıların repertuarında geniş yer tutan mahnı və romansları bəstəkara musiqisevərlərin böyük rəğbətini qazandırmışdır. Süleyman Ələsgərov maarifçi və təşkilatçı kimi ölkənin mədəni həyatının müxtəlif sahələrində uğurla çalışmaqla yanaşı, həm də uzunmüddətli pedaqoji fəaliyyəti dövründə gənc musiqiçilər nəslinin yetişməsi istiqamətində təqdirəlayiq xidmətlər göstərmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliği işinə dəyərli töhfələr vermiş Xalq artisti Süleyman Ələsgərovun 100 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Süleyman Ələsgərovun 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 22 fevral 2024-cü il**

## Bölmə I
## Həyat və yaradıcılığı

Əzəldən sadəlik olub qisməti,
Uymaz nə şöhrətə, uymaz nə sana.
Yaxşılıq ən böyük varı, dövləti,
Ellərin mərd oğlu deyərdim ona

Allahverdi Babayev

Azərbaycan milli mədəniyyətinin inkişafı dövlət mədəniyyət siyasətinin əsasında dayanan prioritet məsələlərdəndir. Belə ki, mədəni və tarixi irsin mühafizə olunması, yaradıcılığın dəstəklənməsi, kadr hazırlığı və gənc istedadların dəstəklənməsi, milli sənətin inkişafı və s. diqqətdə saxlanılır. Eyni zamanda, cəmiyyətin məlumatlandırılmasına yönəldilən və bununla da onun demokratikləşməsinə, dünya birliyinə inteqrasiya edilməsinə rəvac verən mədəniyyət ocaqlarının köklü şəkildə modernləşdirilməsi və yenidən qurulması istiqamətində ardıcıl tədbirlər görülür. Əlbəttə ki, mədəniyyət və incəsənətin inkişafını stimullaşdırmaq dövlət siyasətində xüsusi əhəmiyyət kəsb edir.

Müasir həyatımızda yaradıcı simaların, mədəniyyət və incəsənətimizin görkəmli nümayəndələrinin fəxri ad və mükafatlara layiq görülməsi də təqdirəlayiqdir. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə Azərbaycan mədəniyyəti və incəsənətinə töhfələr vermiş sənətkarların yubiley tədbirlərinin keçirilməsi də bu sahəyə ayrılan diqqətin təzahürüdür.

Bir ömrün məktəbini zəngin edən, ona naxış salan sənətə olan ilahi sevgi, əməllər, istedad, bacarıq və zəhmətdir. Bu ömür paylandıqca insanın əfsanəyə çevrilən nurlu əməlləri dünyaya işıq saçır, onu rövnəqləndirir. Bir tarix yazan ömürdə neçə-neçə illərin izləri var. Görkəmli Azərbaycan bəstəkarı, tanınmış dirijor və pedaqoq, respublika Dövlət mükafatı laureatı, Xalq artisti Süleyman Əyyub oğlu Ələsgərov kimi. Yaşadığı ömür yolunun izləri yaradıcılığına həkk olunub. Hər bəstəsində bir ömür canlanır.

Azərbaycanın əzəli və əbədi torpağı Qarabağ yetirdiyi qəhrəmanlarına, eləcə də mənəviyyat tarixində misilsiz xidmətlər göstərmiş alimlərinə, mədəniyyət və incəsənət xadimlərinə görə də tanınır. Qarabağ bölgəsində doğulub böyümüş düşüncə sahibləri öz dövrlərində şöhrət qazanmış, adları Şərq tarixçilərinin qələmə aldığı qaynaqlara daxil edilmişdir.

Süleyman Ələsgərovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Süleyman Ələsgərovun 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirəcək. Süleyman Ələsgərov milli - mədəni ənənələr zəminində yüksələrək Azərbaycan musiqi mədəniyyəti tarixinə mühüm

səhifələr yazmış sənətkarlardandır. Onun janr əlvanlığı və forma aydınlığı ilə seçilən zəngin yaradıcılığı öz mənbəyini xalq musiqisi xəzinəsindən almışdır. Operetta, opera, simfonik muğam və poemaları, süita, kantata, kamera-vokal və instrumental əsərləri, xüsusən də sözlə melodiyanın ahəngdar vəhdətində ərsəyə gətirdiyi və ifaçıların repertuarında geniş yer tutan mahnı və romansları bəstəkara musiqisevərlərin böyük rəğbətini qazandırmışdır.
Onun yaradıcılığında operetta janrı əsas yer tutur. "Məhəbbət gülü" (1945), "Ulduz" (1948), "Özümüz bilərik" (1962), "Olmadı elə, oldu belə" (1964), "Milyonçunun dilənçi oğlu" (1966), "Hardasan ay subaylıq" (1968), "Sevindik qız axtarır" (1970), "Həmişəxanım" (1971), "Subaylardan görəsiz", "Gurultulu məhəbbət" operettaları Azərbaycan Musiqili Komediya Teatrının səhnəsində bu gün də oynanılır. Onun "Bahadır və Sona", "Solğun çiçəklər" operaları, bir neçə kantatası: "Böyük Oktyabra salam"(1947), "Vətən, eşq olsun"(1960),"Bahar təranələri", "Bir bayraq altında"(1970), "Gənclik" və "Vətən" simfoniyaları, "Bayatı-Şiraz" simfonik muğamı, "Çingiz İldırım" vokal simfonik poeması(1974), "Həzi Aslanovun xatirəsi"nə simfonik poema və süitaları, 3 tar konserti,200-ə qədər mahnı və romansları (22 sözsüz mahnı), "Tarantella", "Rəqs-tokkata","Rondo", "Aşıqvari", Qanun aləti üçün yazdığı "Poema"("Rapsodiya") və digər əsərləri Azərbaycan musiqisinin incilərindəndir.
Süleyman Ələsgərov maarifçi və təşkilatçı kimi ölkənin mədəni həyatının müxtəlif sahələrində uğurla çalışmaqla yanaşı, həm də uzunmüddətli pedaqoji fəaliyyəti dövründə gənc musiqiçilər nəslinin yetişməsi istiqamətində təqdirəlayiq xidmətlər göstərmişdir. Bütün bunlarla yanaşı, 1972-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının Qarabağ filialının rəhbəri kimi çalışmışdı.
Bu gün aramızda olmasa da sənət dünyası, yardıcılıq irsi, yaratdığı bəstəkarlıq məktəbi onun musiqi dünyamızda əbədi olaraq yaşayacağından xəbər verir.

## Bölmə II
## Yubiley tədbirlərinin keçirilməsi

Yuxarıda qeyd etdiyimiz kimi, görkəmli bəstəkar, pedaqoq, respublikanın xalq artisti Süleyman Ələsgərov 1924-cü ildə musiqi və mədəniyyət beşiyi olan Şuşada anadan olub. 11 operettanın, o cümlədən “Ulduz”, “Özümüz bilərik”, “Milyonçunun dilənçi oğlu”, “Sevindik qız axtarır”, “Həmişəxanım”, “Hərənin öz ulduzu” musiqili komediyalarının, “Bahadur və Sona”, “Solğun çiçəklər” operalarının, “Bayatı-Şiraz” simfonik muğamının, bir çox simfoniya və kantataların, tar ilə xalq çalğı alətləri orkestri üçün konsertlərin, “Vətənimdir”, “Yada düşdü”, “Sərvi xuramanım mənim” kimi romansların, 200-dən artıq mahnının müəllifidir Süleyman Ələsgərov.

Bütün varlığı ilə Qarabağa, doğulub boya-başa çatdığı Şuşaya bağlı olub. Musiqinin müxtəlif janrlarında qələmini sınayaraq dəyərli sənət əsərləri yaradan bəstəkarın özünəməxsus musiqi dili vardı. Öz təbirincə desək, gərək yaxşı bəstəkar əsərinin ilk notlarından tanınsın.

"Üzeyir ruhlu sənətkar" kimi dəyərləndirilən Süleyman Ələsgərov ömrünün çox hissəsini pedaqoji fəaliyyətə həsr edib. A.Zeynallı adına Musiqi Texnikumunun (indiki Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci) direktoru, mahnı və rəqs ansamblının rəhbəri, Mədəniyyət Nazirliyində İncəsənət şöbəsinin müdiri, Dövlət Televiziya və Radio Komitəsində xalq çalğı alətləri orkestrinin dirijoru və musiqi bədii rəhbəri, Musiqili Komediya Teatrının direktoru və baş dirijoru, Bakı Musiqi Akademiyasında xalq çalğı alətləri kafedrasının müdiri vəzifələrində çalışıb. O, 1957-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında dərs deyib. Ömrünün son illərində Bakı Musiqi Akademiyasının "Dirijorluq" kafedrasının professoru olub, Akademiyanın Şuşa filialının direktoru vəzifəsində çalışıb.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında görkəmli bəstəkar Süleyman Ələsgərovun yubileyi ilə bağlı tədbirlər planı hazırlanmışdır. Tədbirlər planına əsasən ilk növbədə bəstəkarın həyat və yaradıcılığı ilə bağlı foto sərgi və kitab sərgisi hazırlanır. Sərginin hazırlanmasında məqsədimiz Süleyman Ələsgərovun yaradıcılığını geniş şəkildə gənc nəslə təbliğ etmək və sevdirməkdən ibarətdir. Hazırladığımız sərgini bir neçə başlıq altında təqdim edirik. Məsələn: "Süleyman Ələsgərov-100", "Sənətdə yaşanan ömür", "Sevimli bəstəkarımız", "Bir ömrün əfsanəsi", "Mən Azərbaycan xalqının oğluyam", "Dünyanı gəzən heyrət", "Yaxşı musiqi yazmaq mənim borcumdur", "Sevimli bəstəkar", "Sənətkarın şöhrəti", "İstedad və zəhmət", "Həyatımın əsas məqsədi musiqidir" və s.

Sərginin nümunəsini sizlər üçün təqdim edirik.

1.Başlıq-"Süleyman Ələsgərov-100"

2. Foto sərgi.

3.Kitabların nümayişi

4.Dövrü mətbuatda çap olunan qəzət və məqalələrin kartotekası

5.Görkəmli insanların bəstəkar Süleyman Ələsgərov haqqında söylədikləri.

**Foto sərgi**



















Xalq artisti Süleyman Ələsgərov - 100

**Görkəmli insanların Süleyman Ələsgərov haqqında söylədikləri**

1. Siz ölkəmizdə yüzlərlə mahnı və romansın müəllifi kimi də şöhrət qazanmısınız. Xalq musiqisi intonasiyaları ilə bağlı olan vokal əsərləriniz insanlara vətən sevgisi, mənəvi saflıq, incə duyğular aşılayır. Opera, simfoniya və suitalarınız, xor, instrumental və kamera əsərləriniz böyük istedadınızın ayrı-ayrı çalarlarını nümayiş etdirən gözəl sənət nümunələridir.

   Heydər Əliyev,
   Ümumilli lider

2. Hələ böyük müəllimimiz Üzeyir Hacıbəylinin sağlığında onun xalq çalğı alətləri üçün yazdığı bir sıra əsərləri ustadımızın diqqətini cəlb etmişdi. Onun mahnıları indi də öz təravətini itirməyib.

   Səid Rüstəmov
   Xalq artisti, bəstəkar

3. Tez-tez fəxri xiyabana Süleyman müəllimin məzarı üstünə gedib ona yasin oxutdururam. Və hər dəfə də deyirəm: Əziz Süleyman müəllim, sizin işıqlı xatirəniz neçə-neçə ürəklərdə yaşayır və yaşayacaq. Siz əvəzolunmaz insan idiniz! Allah sizə rəhmət eləsin!

   Arif Babayev
   Xalq artisti, xanəndə

4. Süleyman Ələsgərov mənim xatirəmdə həmişə bir dost, gözəl bir insan olaraq, yaşamaqdadır. Onun musiqi istedadı xalqımızın unudulmaz dəyərlərindən biridir. Həyatında və yaradıcılığında daim sadə olan, insani münasibətlərdə hər cür saxtakarlıq və qeyri, səmimilikdən tamam uzaqda durmuş bir adamın yaşayış tərzi onu davam etdirəcək gələcək nəsillər üçün təmiz, pak, bir örnək olaraq, yaşayacaqdır. Mən onu nəinki istedadlı bir sənətkar kimi qiymətləndirir, həm də qəlbimə yaxın olan munis insan kimi sevirdim.

   Qılman İlkin,
   Xalq yazıçısı

5. Süleyman Ələsgərov mənim üçün əvəzolunmaz doğma bir insan idi. Bəlkə də onun mənim üzərimdəki haqqsayından günlərlə danışsan qurtarmaz. Süleyman müəllim yaratdığı əsərləri ilə həm özünü, həm də bizi əbədiləşdirib.

   Nəsibə Zeynalova,
   Xalq artisti

6. Süleyman Ələsgərovun adı çəkiləndə mən qürur hissi duyuram. O, Üzeyir nəfəsli sənətkar idi. Süleyman çox təmkinli, alicənab, səbirli bir insan idi. Onun Azərbaycan milli musiqimizin inkişafında əvəzsiz xidmətləri var.

Şəfiqə Axundova,
Xalq artisti, bəstəkar

7. Süleyman əmi gözəl musiqiçi, pedaqoq, ictimai xadim, bacarıqlı el təşkilatçısı olmaqdan savayı, həm də müdrik bir el ağsaqqalı idi. Dahi Üzeyirin tələbəsi, onun xeyirxah əməllərinin canlı daşıyıcısı kimi Süleyman əminin əvəzi yox idi. Xeyirxahlığına, insanlara qayğı və məhəbbət dərəcəsinə isə həmişə qibtə edərdim. Süleyman Ələsgərov Azərbaycan musiqisində öz yeri, öz dəsti-xətti, öz auditoriyası olan bəstəkardır.

Arif Məlikov,
Xalq artisti, professor

8. Süleyman Ələsgərov xalq artisti idi. Amma hər xalq artisti adını daşıyan onun qədər xalqa yaxın ola bilməzdi. O, professor idi. Lakin hər professor yetirmələrinə Süleyman Ələsgərov qədər can yandıra bilməzdi.

Şahmar Əkbərzadə,
Şair, publisist, jurnalist



Bəstəkar Süleyman Ələsgərovun yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında "Sevimli bəstəkarımız" adlı söhbətin keçirilməsi də məqsədəuyğundur. Keçirilən tədbirə bir çox qonaqlar dəvət alır. Kitabxanaçı tədbiri açıq elan edir: Süleyman Ələsgərov 22 fevral 1924-cü ildə Şuşada anadan olub. İlk təhsilini musiqi texnikumunun tar sinifində alıb. Yaradıcılıq ruhunu Şuşanın ecazkar təbiətindən alan gənc Süleyman ali təhsil almaq üçün Bakıya üz tutub. Konservatoriyanın bəstəkarlıq fakültəsini bitirən Süleyman Ələsgərov qısa müddət ərzində müsiqi ictimaiyyətində tanınmağa başlanıb.

O, 1943-cü ildə Ü.Hacıbəylinin zəmanəti ilə Bəstəkarlar İttifaqına qəbul olunub. Süleyman Ələsgərovun yaradıcılıq uğurlarında 1942-ci ildə bəstələdiyi "Gözlə məni" mahnısı böyük rol oynayıb. Süleyman Ələsgərov on bir operettanın, o cümlədən "Ulduz", "Özümüz bilərik", "Milyonçunun dilənçi oğlu", "Sevindik qız axtarır", "Həmişəxanım", "Hərənin öz ulduzu" musiqili komediyaların, "Bahadur və Sona", "Solğun çiçəklər" operalarının, "Bayatı-Şiraz" simfonik muğamının, bir çox simfoniya və kantataların, tar ilə xalq çalğı orkestri üçün konsertlərin, "Vətənimdir", "Yada düşdü", "Sərvi xuramanım mənim" kimi sevilən romansların, iki yüzdən artıq nəğmənin müəllifi olub.

Qarabağda baş verən hadisələrə bəstəkar öz fikirini bəstələrində ifadə edib. “Yürüş mahnısı”, “Gənclik marşı”, Aslan Aslanovun sözlərinə “Bu torpağa bağlıyıq”, “Haradasan, igid oğlan”, Qurban Musayevin sözlərinə “Biz qələbə çalmalıyıq”, Bəşir Nəzərlinin sözlərinə “Bura vətəndir” mahnıları, Bəhlul Orucoğlunun sözlərinə “Əsgər marşı”, Qüdrət Əzizin sözlərinə “Güllələnən abidələr” balladası, “Azərbaycan polisi”, “Bakı-Ankara” əsərləri, orkestr üçün çoxlu sayda hərbi marşlar Süleyman Ələsgərov yaradıcılığında Vətən harayı, düşmənə qisas çağırışı olub.

Daha sonra tədbirdə iştirak edən qonaqlar bəstəkar haqqında xatirələrini oxucularla bölüşürlər. Tədbir Süleyman Ələsgərovun mahnıları sədasında yekunlaşır.

Bəstəkar, dirijor, pedaqoq, xalq artisti, Ü.Hacıbəyov adına Respublika Mükafatı laureatı, professor Süleyman Ələskərovun Azərbaycan musiqi mədəniyyətinin inkişafında əvəzsiz xidmətləri ilə bağlı təşkil olunan tədbirlərdən biri də kitab icmalıdır. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının oxu zalında təşkil olunan tədbirə şair və yazıçılar, Respublikamızın musiqi sahəsində fəaliyyət göstərən musiqişünaslar, bəstəkarlar, ali məktəb tələbələri, şagird və müəllim heyəti dəvət alırlar. İlk öncə qonaqlar bəstəkarın uzun illər səmərəli fəaliyyətini əks etdirən kitab, dövrü mətbuatda nəşr olunan qəzet və jurnal materialları və professorun Azərbaycan mədəniyyətinə verdiyi töhfələrlə yaxından tanış olurlar. Tədbirdə bəstəkarın bu illər ərzində nəşr olunan kitablarından söz açılır. Kitabxanaçı tədbiri açıq elan edir: Müzakirəsini keçirəcəyimiz kitab isə 2002-ci ildə çap olunan maraqlı kitablar siyahısına daxil olmuş «Təfəkkür-poliqrafiya» nəşriyyatında işıq üzü görən «Süleyman Ələsgərov xatirələrdə» kitabıdır.




Bildiyiniz kimi, kitab gənc musiqişünas-jurnalist Səadət Təhmirazqızının təşəbbüsündən yaranmışdır. O, bu kitabın yalnız tərtibatçısı deyil, həm də müəllifidir. Belə ki, ön söz : «Bəsətəkarın həyat və yaradıcılığına bir nəzər», «Süleyman müəllimin həyat dərsləri» və «Son söz» bölmələri ilə yanaşı həm də kitabda neçə-neçə insanların xatirələrinin öz əksini tapması məhz Səadət xanımın qələminin məhsuludur. Kitabın müfəssəl bir sənət əsəri kimi təqdim olunmasında professor Vidadi Xəlilovun da mühüm xidmətləri olmuşdur. Belə ki, o, kitabın redaktoru olaraq bütün yazıları diqqətlə nəzərdən keçirmiş, bölmələrin və bu bölmələrdəki məqalələrin düzgün seçilməsinə, bəstəkarın həyat və yaradıcılığına aid olan illərin dəqiq qeyd olunmasına və sairə bu kimi xüsusiyyətlərə ciddi nəzər yetirmişdir. Vidadi müəllimin özünün yazdığı «Hər zaman qəlbimizdədir» məqaləsində (səh.86) onun Süleyman Ələsgərov irsinə olan böyük məhəbbəti və bəstəkarla bağlı maraqlı xatirələri öz əksini tapır. «Süleyman Ələsgərov xatirələrdə» kitabı görkəmli dövlət xadimi hörmətli Prezidentimiz Heydər Əliyevin bəstəkar haqqında dəyərli fikirləri ilə başlayır. «Ön söz»də kitabın hansı zərurətdən yaranması açıqlanır. Sonra Səadət Təhmirazqızı bir musiqişünas nəzəri ilə bəstəkarın həyat və yaradıcılığının son illərini ətraflı şəkildə

şərh edir. Buradan oxucuya bir daha aydın olur ki, daim qəlbi Vətən eşqi ilə döyünən, yüksək xeyirxahlıqla dolu olan bəstəkar ömrünün son on ilində məlum hadisələrlə əlaqədar olaraq yaradıcılığında hərbi-vətənpərvərlik mövzusuna geniş yer vermişdir.

«Bəstəkarın həyat və yaradıcılığına bir nəzər»dən sonra kitabın əsas mahiyyəti olan «Xatirələr» bir neçə bölmədə təqdim olunur. Indi isə bir qədər həmin bölmələr haqqında:

**1. «Sənət dostları və həmkarlarının ürək sözləri və xatirələri».** Burada bəstəkarla çiyin-çiyinə çalışan sənət dostlarının xatirələri cəmləşir. Onlardan Vasif Adıgözəlov, Hacı Xanməmmədov, Şəfiqə Axundova, Sevda Ibrahimova, Ramiz Mirişli, Tofiq Bakıxanov, Ramiz Zöhrabov, Fərhad Bədəlbəyli, Zeynəb Xanlarova, Nəsibə Zeynalova, Ramiz Mustafayev, Vaqif Məmmədov, Elxan Babayev, Mobil Əhmədov, Yaşar Səfərov, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Anar, Zemfira Səfərova, Şəhla Mahmudova, Zenfira Əliyeva, Cabir Novruz, Kürsüm Dadaşova, Əlibaba Məmmədov, Arif Babayev, Yaşar Nuri, Islam Rzayev, Möhlət Müslümov, Yusif Axundzadə, Təhmiraz Şirinov və başqalarının adlarını qeyd etmək olar.

**2.«Müxtəlif peşə-sənət dostlarının ürək sözləri».**

Bu bölmə Süleyman müəllimi yalnız bəstəkar kimi deyil, daha çox xeyirxah bir insan kimi xarakterizə edən xatirələrdən ibarətdir. Burada xatirələri olanlardan Əjdər Ağayev, Nizami Bəhmənov, Elşən Kazımov, Təranə Məmmədova, Yusif Vəliyev, Aliyə Məmmədova, Niyazi Aslanov, Mailə Muradxanlı, Fəridə Aslanbəyova, Kərim Kərimli və daha neçə-neçə xeyirxah insanın adlarını çəkə bilərik. Bu insanlar Süleyman Ələsgərov irsinə olan hörmət və məhəbbətlərini öz xatirələrində ifadə etmişlər.

**3. «Yaxın qohumları və dostlarının ürək sözəri».**

Bu bölmədə bəstəkarın övladları Könül, Arzu və Eyyub Ələsgərovların, nəvələri Təbəssüm, Süleyman, Cabir və Tahirin, eləcə də yaxın qohumlarının xatirələri var. Özü də bütün xatirələrdə Süleyman müəllimi ananlar onun vəfalı ömür-gün yoldaşı Ağgül xanımla qoşa xatırlayırlar. Beləliklə, bütün bu xatirələri Süleyman müəllimin həyat və yaradıcılığının müxtəlif tərəflərini kitabda əks etdirən musiqişünas Səadət Təmirazqızı yazdığı «Son söz»də belə yekunlaşdırır: «Mən kitabda xatirələri toplananlara və bu kitabın hazırlanmasında zəhməti olanlara öz dərin təşəkkürümü bildirirəm. Bu kitab bizlərin Süleyman müəllimin və Ağgül xanımın ruhu qarşısındakı mənəvi borcumuzun cüzi bir hissəsidir. Bir daha onlara Tanrıdan rəhmət diləyirəm. Qoy onların həyat yolu bizlərə və bizdən sonrakı nəsillərə örnək olsun».

Bəli, hörmətli oxucu musiqişünas Səadət Təhmirazqızının nəşr etdirdiyi «Süleyman Ələsgərov xatirələrdə» kitabı doğrudan da gələcək nəslə sənətkarlıq və insanlıq meyarları baxımından əsl örnək ola biləcək bir sənət əsəridir. Biz oxucular adından yazıçıya yaradıcılığında uğurlar diləyir və belə bir təşəbbüsünə görə ona təşəkkürümüzü bildiririk.

Sonda kitabda yer alan “Bir inci də getdi xəzinəmizdən” adlı şeirlə tədbirimizi başa vururuq. Şeiri Şuşalı şair Allahverdi Babayev Süleyman Ələsgərovun xatirəsinə ithaf edib.

Yaxşılar həyatdan köçən zamanda
Min təəssüf hissi də doğur o anda
Sən də yaxçısıydın ən yaxşıların,
Yaxşılıq olmuşdu, dövlətin, varın.

Qayğısın çəkirdin elin, obanın
Xalqına bağlıydı eşqin, əməlin,
Doğma torpağına çatmırdı əlin!
Əridin şam kimi, dözmədin qəti,
Qəlbini yandırdı Şuşa həsrəti!

O qədər xeyirxah ürəyin vardı,
Hamıya yaxşılıq, sevinc paylardı.
Könlünü bir nisgil alsa da hərdən,
Ömründə qalmazdın xeyirdən, şərdən.

Daim xatırlayıb dogma atanı,
Köməklik edərdin gücün çatanı.
Bu sənə irs idi öz soyadından,
Min fərəh duyurduq sənin adından.

Böyük Üzeyirin yolu ilə getdin,
Həmişə, hər yerdə köməyə yetdin.
Uzun gecələri gündüzə qatdın,
Coşqun bir ilhamla yazıb-yaratdın.

Dəcli ağac kimi çox idi barın,
Mənəvi sərvətdir romansların,
Əbədi yaşayan operettalar
Səmavi ruhunu qoynunda saxlar!

Canının oduyla bəstələdiyin,
Ömrün səhərinə xoş dilədiyin
Hər gözəl mahnıdan şərbət süzülür,
Notları incidir, taca düzülür!

Sənin canındaydı orkestr karvanı,
Olmuşdun sən onun mahir sarvanı.
Yolunda sönməyən məşəl yandırdın,
Qartaltək zirvəyə qanadlandırdın.

Elə zirvəyə ki, ordan baxanda
Dostların ömrünün yaxşı anıydın,
Könüllər mülkünün Süleymanıydın!
Səninlə bağlıydı dostların halı,

Köçdün bu dünyadan əli uzalı!
Bu, ağır nisgilli itkidi bizdən,
Bir inci də getdi xəzinəmizdən.
Önündə hörmətlə biz əyirik baş,
Ruhun nurla dolsun Süleyman qardaş!

Bəstəkar Süleyman Ələsgərovun 100 illik yaradıcılığı ilə bağlı tədbirlər siyahısına ədəbii-bədii gecəni də daxil etmək məqsədəuyğun olar. Belə ki, bəstəkarın yaradıcılığının oxucular arasında geniş təbliği üçün keçirilən ədəbi-bədii gecə iki hissədən ibarət olur. Bu tədbir oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbirin birinci hissəsi çıxış və məruzələrlə başlayıb, ikinci hissəsi isə bəstəkarın musiqilərinə bəstələnmiş mahnılarla davam edir. “Üzeyir məktəbinin layiqli varisi” adlı tədbirin ssenarisini sizlər üçün təqdim edirik. Səhnədən bəstəkarın portreti asılır.



Səhnə gül-çiçək dəstələri ilə bəzədilir. Aparıcılar səhnəyə daxil olur:

I Aparıcı: Azərbaycan musiqi tarixində və inkişafında Respublikanın xalq artisti, Dövlət mükafatı laureatı, istedadlı dirijor, tanınmış pedaqoq, ictimai xadim, professor S.Ələsgərov özünəməxsus fəxri yer tutan bəstəkarlardan biridir. Onun yaradıcılığı Azərbaycan professional musiqi tarixinin parlaq bir səhifəsidir.

Xalq yaradıcılığından bəhrələnən bəstəkarın özünəməxsus dil üslubu, fərdi yaradıcılıq prinsipləri və xüsusiyyətləri onun bütün əsərlərində diqqəti cəlb edir.

Musiqişünaslar S.Qasımova, N.Bağırov onun musiqisi haqqında yazırlar: «S.Ələsgərov musiqisi üçün şən, sevindirici əhval-ruhiyyə, emosionallıq, fikrin

səmimiyyəti xasdır. Günün akutal məsələləri, müasirlərimizin həyatı, onların arzu və istəkləri, Vətənin tərənnümü, adamlarımızın əmək nailiyyətləri - bütün bunlar S.Ələsgərovun yaradıcılığında öz əksini tapır. Xalq yaradıcılığına xas olan intonasiyalardan, ritmlərdən geniş istifadə edən S.Ələsgərov folklor sənətinin təkraredilməzliyini, orijinallığını öz əsərlərində səmimi şəkildə ifadə etməyə çalışır. Bu işdə ona xalq musiqiçiləri ilə daima əlaqəsi xeyli kömək edir». S.Ələsgərov zəngin musiqi irsinə malikdir. Bu musiqi irsi Azərbaycan professional musiqisinin bir çox janrlarını əhatə edir. Bəstəkar 2 operanın («Bahadur və Sona» və «Solğun çiçəklər»), 12 musiqili komediyanın, 2 simfoniyanın («Gənclik» və «Vətən), «Bayatı-Şiraz» simfonik muğamının, violonçel, fortepiano və simfonik orkestr üçün «Ikili konsert»in, simfonik orkestr üçün «Uvertüralar»ın, 2 simfonik poemanın, 6 kantatanın, bir sıra kamera-instrumental əsərlərin, tar ilə Azərbaycan xalq çalğı alətləri orkestri üçün 3 konsertin, xor üçün, xalq çalğı alətləri orkestri üçün bəstələnmiş rəngarəng janrlı əsərlərin, 200-ə qədər mahnı və romansların müəllifidir. Süleyman Ələsgərovun yaradıcılıq marağı çox zəngindir. O, daima çalışmışdır ki, qədim və zəngin bir tarixə malik olan xalq musiqimizin ən gözəl ənənələrini öz yaradıcılığında əks etdirsin. S.Ələsgərovun geniş dinləyici kütləsi arasında tanınması 40-cı illərin əvvəllərinə aiddir. 1944-cü ildə Tbilisidə Zaqafqaziya respublikalarının ongünlüyü keçirilən zaman başqa bəstəkarlarımızla yanaşı S.Ələsgərov da iştirak edirdi. Ongünlükdə səsləndirilən bir çox mahnılarla yanaşı onun "Gözlə məni" mahnısı da ifa olundu. Bu mahnını o,1942-ci ildə yazmışdı. Ilk ifadan sonra bu mahnı dinləyiciər arasında yayıldı, öz müəllifinə şöhrət gətirdi. Bəstəkar bu əsəri haqqında deyirdi: "Ilk mahnımı mən ikinci cahan müharibəsi illərində yazmışam. Bu, cəbhədə həlak olmuş istedadlı şair Şirzad Əliyevin sözlərinə yazılmış «Gözlə məni» mahnısıdır. Mən xoşbəxtəm ki, bu ilk mahnımı Azərbaycan vokal məktəbinin banisi Bülbül oxumuşdur».

Tbilisidə keçirilən ongünlükdə gənc bəstəkarın mahnıdan başqa süitası da ifa olunmuşdur. Sonrakı illərdə Azərbaycan Dövlət Konservatoriyasında məşhur pedaqoq, professor Boris Zeydmanın bəstəkarlıq sinfində təhsil alarkən o, Sovet Ittifaqı Qəhrəmanı, general Həzi Aslanova həsr olunmuş simfonik «Poema», «Məhəbbət gülü» musiqili komediyasını, simli kvartet, skripka, violonçel və fortepiano üçün «Trio», «Xatirə» əsərlərini yazır. III kursda təhsil alarkən o, simfonik orkestr üçün «Bayram uvertürası»nı, violonçel, fortepiano və simfonik orkestr üçün ikili «Konsert»ini, nəhayət, diplom işi olan «Vətən» simfoniyasını bəstələyir. Hər üç əsər elə yazıldığı dövrdə musiqi ictimaiyyəti arasında rəğbətlə qarşılanır və bu günümüzə qədər həmin simfonik əsərlər açıq konsertlərdə səsləndirilir. Onların lent yazısı radionun, videoyazısı isə mavi ekranın fonduna daxil olmuş, vaxtaşırı səsləndirilir və ekranda göstərilir. Görkəmli bəstəkar Əşrəf Abbasov «Bayram uvertürası»nı bəstəkarın ən müvəffəqiyyətli əsərlərindən sayır: «Burada xəlqilik, melodiya zənginliyi, harmoniya əlvanlığı… orkestrin parlaq səslənməsi, musiqi inkişafının qanunauyğunluğu və ümumi ahəngi uvertüranın bayramsayağı ifasına gətirib çıxarır». S.Ələsgərovun

violonçel, fortepiano və simfonik orkestr üçün yazdığı ikili «Konsert» onun yaradıcılığında müstəsna yer tutur. Bu əsər milli konsert janrının təşəkkülündə və inkişafında müəyyən mərhələ rolunu oynamışdır. S.Ələsgərov simfonik muğam sahəsində də çalışmışdır. Onun «Bayatı-Şiraz» simfonik muğamı bu janrda «Şur», «Kürd-Ovşarı», «Rast»dan sonra yazılmış gözəl nümunədir. Bu simfonik muğam haqqında professor E.Babayev yazır: «Bayatı-Şiraz» simfonik muğamı rəng və təsniflərdən, «Aman ovçu», «Laçın» kimi xalq mahnılarımızdan, peşəkar el ustalarımızın sənət yönünü əks etdirən muğam parçalarından hörülmüş min çalarlı, min çiçəkli musiqi çələngidir. Burada monumentallıq nəfis xallarla, ornament bəzəklərilə, kamil forma, dərin melodik dolğunluqla uzlaşır». 50-ci illərin əvvəllərində bəstəkarın «Gənclik» simfoniyası da ona şöhrət gətirir. Bu simfoniya 1954-cü ildə Mingəçevir SES-in tam işə düşdüyü zaman yazılıb. S.Ələsgərovun yaradıcılığında kamera instrumental əsərlər də vardır. Onların arasında fortepiano, tar, skripka üçün «Trio»nu, fortepiano üçün «Rəqstokkata»nı, skripka və fortepiano üçün «Sonata»nı, fortepiano üçün «Düşüncə»ni qeyd etmək olar. Bu əsərlər açıq konsertlərdə, mavi ekranda, radio dalğalarında ifa olunmaqla bərabər, ali və orta ixtisas musiqi məktəbləri tələbələrinin tədris proqramınadaxiledilmişdir. S.Ələsgərovun yaradıcılığında mahnı xüsusi yer tutur. Bəstəkar 200-dən artıq nəğmənin müəllifidir. Xüsusilə əmək mahnıları mövzusunda onun bir çox mahınısı var. V.Xəlilov «Bəstəkar Süleyman Ələsgərov» kitabçasında müəllifin dilində bu haqda yazır: «Mən Azərbaycan torpağını qarış-qarış gəzirəm. Vətənin gözəlliklərini vəsf etməklə bərabər onun əməkçiləri ilə tez-tez görüşürəm. Hər təzə görüş qəlbimdə insan əməyinin qüdrəti, yenilməzliyi barədə hisslər yaradır». Bəstəkarın əmək mahnılarından ibarət «Işıq» nəşriyyatı iki məcmuə buraxmışdır. Bunlar «Hünər və könül təranələri», «Əmək və hünər nəğmələri» adlanır. S.Ələsgərovun mahnı yaradıcılığı əmək mahnıları ilə bitmir. Vətən, onun ayrı-ayrı guşələri haqqında məhəbbət, sülh, xalqlar dostluğu mövzularında da mahnıları var. Bu mövzuda olan mahnıların musiqisi əzəmətli, şən, şux xarakter daşıyır. Bəstəkarın yaradıcılığında mahnılarla yanaşı, romanslar da xüsusi yer tutur. Onun romanslarının çoxu klassiklərimizin şer və qəzəllərinə yazılmışdır. Xüsusilə Nizaminin sözlərinə «Sərvi xuramanım mənim», Füzulinin sözlərinə «Vətənimdir», Nəsiminin sözlərinə «Neylərəm» qəzəl-romansları yazıldığı vaxtdan bu günə qədər məşhur müğənnilərimiz tərəfindən sevilə-sevilə oxunur və musiqi sevərlərin rəğbətini qazanır. S.Ələsgərovun mahnı-romans janrında yazdığı əsərlər də maraqlı və xoşagələndir. Bu mahnılardan ən məşhurları «Küsmərəm» (söz: M.Müşfiqindir), «Yada düşdü» (söz: C.Cabbarlınındır), «Qarabağ» (söz: S.Rüstəmindir), «Bilmirəm» (söz: M.Ə.Sabirindir) romansları rəngarəngliyinə, bir-birini təkrar etməyən musiqi nümunələrinə görə fərqlənir. Bütün bunlardan əlavə bəstəkarın böyük müəllimi dahi Üzeyirbəy Hacıbəyovun xatirəsinə həsr etdiyi «Eşq olsun sənətkara» (söz: S.Vurğunundur) balladası yaradıcılığında mühüm əhəmiyyətə malikdir. S.Ələsgərovun yaradıcılığında musiqili-səhnə əsərləri də əlamətdar yer tutur. O bütün yaradıcılığı boyu bu kimi əsərlərə müraciət edib. Bəstəkar musiqili-komediya janrını daha çox sevirdi. Onun 12 musiqili komediyası Ş.Qurbanov

adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrında tamaşaya qoyulmuş və bəstəkara şöhrət gətirmişdir. Bu səhnə əsərlərində o, dahi Ü.Hacıbəyovun musiqili komediya ənənələrini öz yaradıcılığında davam etdirmişdir.

II Aparıcı: Bəli, əziz oxucu görkəmli Azərbaycan bəstəkarı, tanınmış ictimai xadim, Xalq artisti Süleyman Ələsgərovun anadan olmasından 100 il ötür. Süleyman Əyyub oğlu Ələsgərov Allahın xalqımıza bəxş etdiyi qənimət insanlardan idi. Elcanlı, dostcanlı bu böyük insanla ünsiyyətdə, yaradıcılıq əlaqəsində olan hər kəs onu dahi Üzeyir bəyin yadigarı kimi tanıyır, sevir, dəyərləndirirdi. Bəstəkarın yaradıcılıq diapazonu çox genişdir. O demək olar ki, musiqinin bütün janrlarında qələmini sınamış və hər yeni əsəri ilə sənətsevərlərin rəğbətini qazanmışdır. Yüzdən çox mahnı bəstələyib. Bu mahnılarda doğma ölkəmizin gözəl guşələri, xalqın həyatı, qurub-yaradan adamlarımızın fədakar əməyi tərənnüm olunmuşdur. Bəstəkarın «Göygöl», «Şuşa», «Mingəçevir», «Naftalandadır» kimi mahnıları Azərbaycan təbiətinin bənzərsiz gözəlliyini, ülviliyini tərənnüm edən çox qiymətli vokal əsərləridir. O, professional musiqimizdə mahnı-romans janrını yaradıcılıqla inkişaf etdirən sənətkarlarımızdandır. «Yada düşdü», «Vətənimdir», «Sərvi Xuramanım mənim», «Qafqaz», «Ata», “Küsmərəm”, «Bilmirəm», «Neylərəm» romansları forma əlvanlığına, ifadə vasitələrinə görə böyük maraq doğurur. Süleyman Ələsgərov Azərbaycan professional musiqisində «sözsüz mahnı» janrının əsasını qoyan və bu janrı daha da zənginləşdirən yeganə bəstəkardır. Müxtəlif illərdə böyük həvəslə qələmə aldığı 21 sözsüz mahnı bir-birindən dəyərli, əlvan melodiya çalarlarına malikdir.Şuşada dünyaya göz açmış Süleyman Ələsgərovdan danışanlar onu Üzeyir ruhlu sənətkar kimi dəyərləndirirlər. Bu da təsadüfi deyil. Çünki o, ömrü boyu sayəsində bir bəstəkar kimi yetişdiyi Üzeyir bəyə və onun irsinə sadiq qalıb (Yeri gəlmişkən onu da deyək ki, Süleyman Ələsgərov konservatoriyaya ayaq basan gündən Üzeyir bəy onunla maraqlanıb. Onun ilk əsəri olan "Gözlə məni" mahnısını (1942) isə yüksək dəyərləndirib. Həmin mahnını Bülbül ifa edib).

Süleyman Ələsgərov əsəri ilk notlarından tanınan bir bəstəkar olub. Yaradıcılığında müxtəlif janrlara müraciət etmiş sənətkar 2 operanın ("Bahadır və Sona", "Solğun çiçəklər"), 12 musiqili komediyanın ("Məhəbbət gülü", "Ulduz", "Özümüz bilərik", "Olmadı elə, oldu belə", "Milyonçunun dilənçi oğlu", "Hardasan ay subaqlıq", "Sevindik qız axtarır", "Həmişə xanım", "Gurultulu məhəbbət", "Subaylarınızdan görəsiniz", "Hərənin öz ulduzu") 2 simfoniya ("Gənclik" və "Vətən"), "Bayatı-Şiraz" simfonik muğamının, 200-ə qədər mahnı və romansların müəllifidir. Bəstəkarın "Bayatı-Şiraz" simfonik muğamı onun yaradıcılığında mühüm mərhələni təşkil edir. "Ulduz" operettası həm ölkəmizin bir çox şəhərlərində, həm də onun hüdudlarından uzaqlarda tamaşaya qoyulub və C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ekranlaşdırılıb. Ümumiyyətlə, bəstəkar musiqili-komediya janrını daha çox sevirdi. Bu səhnə əsərlərində o, dahi Ü.Hacıbəyovun musiqili komediya ənənələrini öz yaradıcılığında davam etdirib.Lakin onu da Şuşa nisgili sarsıtdı. O bu sarsıntını notlarla

("Yürüş mahnısı", "Gənclik marşı", "Bu torpağa bağlıyıq", "Haradasan, igid oğlan", "Biz qələbə çalmalıyıq", "Bura vətəndir", "Əsgər marşı", "Güllələnən abidələr", "Azərbaycan polisi", "Bakı-Ankara" və s.) ifadə etdi. Xalq şairi Zəlimxan Yaqubun "Bu gecə yuxuma girmişdi Şuşa" şerinə yazdığı musiqidə onun bu sarsıntılarını duymamaq mümkün deyil.

Süleyman Ələsgərov haqqında bir çox görkəmli şəxsiyyətlər tərifəlayiq sözlər söyləmişlər. Ulu Öndər Heydər Əliyev onun haqqında hər zaman yüksək fikirdə olmuşdur: “Siz milli musiqi sənətimizin inkişafında böyük xidmətlər göstərərək, xalqımızın dərin ehtiram və məhəbbətini qazanmış sənətkarlardansınız. Tükənməz xalq musiqilərindən bəhrələnən yaradıcılığınız rəngarəngliyi, forma aydınlığı, musiqi dilinin səlisliyi ilə səciyyələnir. Müxtəlif janrlarda bəstələdiyiniz əsərlər son əlli il ərzində respublikanın mədəni həyatında mühüm rol oynayaraq, milli musiqi sənəti tarixinə parlaq səhifələr yazmışdır”.

Bu gün Süleyman Ələsgərov irsi Salman Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivində 187 N-li fond adı altında saxlanılaraq qorunur. Onun fondu öz zənginliyi ilə seçilir. Bu fond arxivə sənətkarın özü tərəfindən təhvil verilmişdir. Sənədləri arasında onun not yazıları, fotoşəkilləri, məqalələri, xidməti və ictimai fəaliyyətinə aid sənədlər üstünlük təşkil edir.

Süleyman Ələsgərov 75 illik yubileyində müsahibə zamanı düşüncələrini belə dilə gətirirdi: “Mən heç zaman  doğum günümü təmtaraqla qeyd etmirəm. Vətənim düşmən tapdağındadır. Demək olar ki, hər gün Şuşanı görürəm. Mən bir az da yaşamaq istəyirəm. Hamı öləcək, amma istəyirəm ki, Şuşanın geri alındığını, orada abadlıq işləri aparıldığını görəm. Sonra Allah bilən məsləhətdir. Bax onda bu mənim üçün yubileylər yubileyi olar. Yubileyimi yalnız Şuşada keçirəcəyəm”.

Bu sözlərin müəllifi artıq aramızda olmayan əvəzolunmaz bəstəkar Süleyman Ələsgərovdur. O, Şuşanın azad olunduğu günü görməsə də, lakin bu gün Şuşasından narahat gedən sənətkarın ruhu şaddır. Biz inanırıq ki, Şuşa həsrəti, yanğısı ilə yaşayan musiqi xəzinəmizin undulmaz siması  məhz bu il 100 illik yubileyində öz doğma ocağında anılacaqdır. Süleyman Ələsgərov kimi sənətkarlar hər zaaman ölümsüz olurlar. Çünki onların həqiqi sənət nümunələri əsrlərin arxasında yenə də öz sözlərini  inamla deyirlər. Bu gün ondan geriyə qalan məhsuldar sənət yaradıcılığı Azərbaycan musiqisinin inkişafına xidmət edir.

**I Aparıcı:** Bəli, bu gün Süleyman müəllim cismən bizimlə deyil. Amma ruhu daim başımızın üstündə pərvaz edərək bizlərə xeyirxahlıq diləyir.

Ruhunuz şad olsun, əziz Süleyman müəllim!
Görkəmli sənətkar 2000-ci il yanvarın 21-də  74 yaşında vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

**F. Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

**Kitablarda**

Arif Məlikov = **Arif Melikov** = Ариф Меликов. - [S. l. : s. n.], 2017. - 392 s.

**Baxşiyeva-İbrahimova A**. Arif Məlikov: tarix və müasirlik : Bəstəkarın kamera-instrumental və kamera-vokal musiqisi əsasında. - Bakı : Şərq-Qərb, 2020. - 312 s.

Mənalı ömrün salnaməsi : Bilqeyis xanım Məmmədova-Qarayeva haqqında xatirələr. - Bakı : Şərq-Qərb, 2017. - 128 s.

**Dövrü mətbuatda**

A. C. Məlikovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (13 sentyabr 2018-ci il) // Azərbaycan : qəzet. - 2018. - 14 sentyabr. - № 205. - S. 2.

A.C.Məlikovun Heydər Əliyev mükafatı ilə təltif edilməsi haqqında Azərbaycan Prezidentinin Sərəncamı (5 may 2009-cu il) // Azərbaycan. - 2009. - 13 may. - S. 1.

A.C.Məlikovun xatirəsinin əbədiləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (17 may 2019-cu il) // Azərbaycan : qəzet. - 2019. - 18 may. - № 108. - S. 2.

**Allahverdiyev C**. Arif Məlikovun Fortepiano üçün pyeslər albomu // Mədəni Maarif. - 2011. - № 1. - S. 66-68.

**Anar.** Böyük bəstəkar, böyük vətəndaş // Ədəbiyyat qəzeti. - 2019. - 11 may. - № 16. - S. 3 ; 525-ci qəzet. - 11 may. - № 74. - S. 11. - 9 may 2019.

Arif Cahangir oğlu Məlikov : nekroloq // Respublika. - 2019. - 11 may. - № 102. - S. 5.

Arif Məlikov **:** Roma dönəminə aid antik teatrda on minlərlə tamaşaçı "Məhəbbət əfsanəsi"nə baxırdı... : **Arif Məlikov**la müsahibə / söhbətləşdi A. Turan // Ədəbiyyat qəzeti. - 2018. - 13 oktyabr. - № 38. - S. 16-17.

Arif Məlikov**un əsərləri** Azərbaycan mədəniyyətinin qızıl fonduna daxildir : Bəstəkar **Arif Məlikov**un 90 illik yubileyi və Milli Musiqi Günü münasibətilə Azərbaycan musiqi ictimaiyyətinə təbrik // Azərbaycan : qəzet. - 2023. - 19 sentyabr. - № 202. - S. 2.

**Baxşıyeva A**. Musiqisi ölməz, xatirəsi unudulmaz... : Böyük Bəstəkar Arif Məlikovun 90 illiyi tamam olur // 525-ci qəzet. - 2023. - 13 sentyabr. - № 163. - S. 12.

**Bayramov Ə**. Azərbaycan musiqi sənətinin canlı əfsanəsi : Arif Məlikov // Xalq qəzeti. - 2012. - 26 yanvar. - № 19. - S. 6.

**Bayramova Z**. Arif Məlikov - 85 : Azərbaycan Bəstəkarlıq məktəbinin böyük sənətkarı // Səs. - 2018. - 22 sentyabr. - № 179. - S. 11.
**Bayramova Z**. Böyük bəstəkar Arif Məlikov - milyonların sevimlisi // Səs. - 2021. - 11 sentyabr. - № 164. - S. 12.

**Bayramova Z**. Musiqi xəzinəsinin qızıl incilərini yaradan bəstəkar // Səs. - 2023. - 14 sentyabr. - № 166. - S. 10.

**Əhmədalılar T**. Arif Məlikov həqiqəti : həmişə təzə, hər an real məhəbbəti əfsanələşdirilmiş çağdaşımızın yubiley gecəsindən... // Mədəniyyət. - 2013. - 18 oktyabr. - № 74. - S. 6.

**Fərəcova H**. Arif Məlikovun rəsmlərinin musiqi ilə vəhdəti // Kaspi. - 2013. - 19 aprel. - № 68. - S. 12.

**Fərəcova Z**. Əfsanəyə dönən bəstəkar ömrü // Azərbaycan : qəzet. - 2023. - 13 sentyabr. - № 197. - S. 9.

**Fərəcova Z**. Musiqi sənətimizin əfsanəsi : Arif Məlikov - 85 // Azərbaycan : qəzet. - 2018. - 25 sentyabr. - № 214. - S. 7.

**Hüseynov Ə**. "Arif Məlikov" kapriççiosu // 525-ci qəzet. - 2019. - 26 iyun. - № 91. - S. 20.

**Xəlilzadə F**. Bəstəkar ömrünün əfsanəsi : Arif Məlikov // Mədəni Həyat. - 2013. - № 9. - S. 26-28.

**Xəlilzadə F**. Bəstəkar ömrünün əfsanəsi... : Arif Məlikov haqqında // Mədəniyyət. - 2011. - 7 sentyabr. - № 65. - S. 13.

**Xəlilzadə F**. Böyük ömrün sonsuzluğu : Heydər Əliyev mükafatı laureatları : Arif Məlikov // Azərbaycan. - 2009. - 22 may. - S. 6.

**Kazımzadə A**. Kinomuz, musiqimiz // Mədəniyyət. - 2009. - 18 sentyabr. - N 68. - S. 10.

**Qismət İ**. Şərəfli bəstəkar ömrü : Arif Məlikov - 80 // Mədəniyyət. - 2013. - 6 sentyabr. - № 63. - S. 10.

**Qurbanlı R**. Nazim Hikməti heyrətləndirən azərbaycanlı : Qara Qarayevin istedadlı yetirməsi // Xalq qəzeti. - 2023. - 13 sentyabr. - № 197. - S. 10.

**Mədəniyyətimizin** Arif Məlikov itkisi : Mayın 9-da dünyasını dəyişən görkəmli bəstəkar I Fəxri Xiyabanda dəfn olunub // 525-ci qəzet. - 2019. - 11 may. - № 74. - S. 11.

**Məhərrəmova T**. Aramızda olan dahi və ya 27 yaşında dünya şöhrəti qazanan bəstəkar : Arif Məlikov haqqında // Kaspi. - 2017. - 14 sentyabr. - № 149. - S. 13.

**Məhərrəmova T**. Əfsanəyə çevrilən bəstəkar : O, "mən xoşbəxt sənətkaram" deməyi haqq edirdi // Kaspi. - 2019. - 11-13 may. - № 85. - S. 7.

**Nağıyev S**. Ali mükafatın 3 sahibi // Mədəniyyət. - 2009. - 15 may. - S. 3.

**Neymətli Y**. Arif Məlikov - əbədiyyətə qovuşan əfsanə // 525-ci qəzet. - 2023. - 12 sentyabr. - № 162. - S. 12-13.

**Süleymanova N**. Musiqi mədəniyyətimizin görkəmli siması, bəstəkar, Xalq artisti Arif Məlikov // Respublika. - 2023. - 13 sentyabr. - № 197. - S. 11.

**Zümrüd.** Əsərləri dünyada ən çox səslənən bəstəkar : Bu gün Azərbaycanın məşhur bəstəkarı, xalq artisti, professor Arif Məlikovun doğum günüdür // Səs. - 2014. - 13 sentyabr. - № 169. - S. 12.

# Süleyman Ələsgərovun ömür notları

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**